QƏLƏBƏ

İctimai-siyasi qəzet

20 sentyabr 2018-ci il, cümə axşamı, № 25-26 (8.507)

Qəzet 1924-cü ildən çıxır

TƏSİSÇİ: SALYAN RAYON İCRA HAKİMİYYƏTİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

İki qardaş ölkənin sarsılmaz birliyi bütün dünyaya nümayiş etdirildi

100 il bundan öncə 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan Korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad etdi. Beləliklə, həm Azərbaycanın istiqlaliyyəti təmin olundu, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı işğalına, qırğın və talanlarına son qoyuldu. Bakının erməni-bolşevik işğalçılarından azad edilməsi XX əsr Azərbaycan tarixinin ən şanlı səhifələrindən biridir. Bu, əslində Bakını paytaxt elan edən qurtuluş mücadiləsi idi. Bu mücadilədə 1132 nəfər türk, 3 min nəfər azərbaycanlı şəhid oldu.

Ermənilər bütün dünyaya car çəkib bildirirdilər ki, birləşmiş türk-azərbaycanlı qüvvələri 1918-ci ilin mart soyqırımının qisasını almaq üçün onları təamamilə qılıncdan keçirəcəklər. Lakin iftiraçı ermənilərin əsassız düşüncələrinin əksinə olaraq Bakı azad edilərkən, yəni, 1918-ci ilin sentyabrında Azərbaycan hökuməti və Türk komandanlığı məqsədəuyğun, planlı olaraq heç bir qırğın və talana yol verməmişlər.

Sentyabrın 16-da parad qəbul edərək təntənəli şəkildə şəhərə daxil olan Nuru paşa Bakıda qalmış rus zabitləri ilə hörmətlə davranırdı. O, nəinki Nargində türk hərbi əsirlərinə göstərilən amansızlığa görə onlardan intiqam aldı, hətta belə bir mürəkkəb vəziyyətdə onların ailələrinə maddi yardım göstərilməsini təmin etdi.

1918-ci ilin 15 sentyabrından 100 il sonra bir millət, iki dövlətin əsgərlərinin iştirakı ilə keçirilən möhtəşəm parad bütün dünyaya göstərdi ki, Türkiyə-Azərbaycan qardaşlığı daimidir, əbədidir. Bu sarsılmaz dostluğa, qardaşlığa heç bir qüvvə kölgə sala, tarix boyu sınanmış, bir-birinin arxasında dayanmış qardaş millətləri ayıra bilməz.

Paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak edirdilər. Hərbi paradda çıxış edən qardaş ölkənin başçısı Türkiyənin istənilən anda Azərbaycanın yanında olduğunu, bütün dünyaya bəyan edərək bildirdi ki, Azərbaycanın sevinci bizim sevincimizdir, qüruru bizim qururumuzdur, dərdi, ağrısı, problemi də bizim problemimizdir. Azərbaycan kədərlənərsə, biz də kədərlənərik, Azərbaycan sevinərsə, biz də sevinərik. Azərbaycanın ən böyük problemi olan Dağlıq Qarabağ məsələsi bizim üçün də eyni dərəcədə ağrılı problemdir. Türkiyə Azərbaycanın göstərdiyi səyləri sonadək dəstəkləməyə davam edəcək. İllərdir vətən həsrəti ilə ömür sürən bir milyondan çox qardaşımızın intizarına artıq son qoymaq vaxtıdır. Qardaş Azərbaycanın ərazilərinin 20 faizini işğal altında saxlayanların, bir milyondan çox qardaşımızın öz vətəninə qayıtmasına mane olanların bizdən sərhədlərimizi açmağımızı gözləmələri əbəsdir.

Qədirbilən Azərbaycan xalqının 1918-ci ilin 15 sentyabr hadisələrini heç vaxt unutmayacağını, şəhidlərin əziz xatirəsini daim öz qəlbində yaşadacağını deyən ölkə başçımız möhtəşəm ordumuzun gücü, qüdrəti ilə bayraqlarımızın tezliklə işğal altında olan torpaqlarımızda dalğalanacağını bütün dünyaya bəyan etdi: "Bu gün Azadlıq Meydanına döyüşlərdə olmuş Azərbaycan bayraqları gətiriləcək. O bayraqlar ki, 2016-cı ildə Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının işğaldan azad edilmiş torpaqlarında Azərbaycan əsgəri tərəfindən qaldırılmışdır. O bayraqlar ki, bu ilin may ayında Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan hissəsində uğurlu əməliyyat nəticəsində işğaldan azad edilmiş torpaqlarda qaldırılmışdır. Gün gələcək, Azərbaycanın Dövlət Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır".

Bəli, sentyabrın 15-də yüksək səviyyədə keçirilən hərbi paradda iki qardaş xalqın silahlı qüvvələri gücünü, qüdrətini, nəyə qadir olduğunu, Bakının küçələrində, hərbi gəmilərdə, səmada dalğalanan Türkiyə və Azərbaycan bayraqlarını bütün dünya gördü, o cümlədən Azərbaycan, Türkiyə xalqı ölkəmizin hüdudlarından kənarda yaşayan milyonlarla soydaşımız, böyük fərəhlə seyr etdi, bundan sonsuz qürur və iftixar hissi keçirdi.

A.C.Məlikovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Arif Cahangir oğlu Məlikov "Şöhrət" ordeni ilə təltif edilsin.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 sentyabr 2018-ci il.

"Azərbaycan" qəzetinin əməkdaşlarına "Əməkdar jurnalist" fəxri adının verilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikasında milli mətbuatın inkişafındakı xidmətlərinə görə "Azərbaycan" qəzetinin aşağıdakı əməkdaşlarına "Əməkdar jurnalist" fəxri adı verilsin:

Cavadov Seyran Qubad oğlu

...

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 sentyabr 2018-ci il.

"Şöhrət" ordenli bəstəkara ünvanlanmış təbrik məktubu

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də görkəmli bəstəkar Arif Cahangir oğlu Məlikovun "Şöhrət" ordeni ilə təltif edilməsi barədə sərəncam imzalayıb. 85 yaşı tamam olan bəstəkar Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə təltif olunub.

Dövlət başçısı Azərbaycanın və SSRİ-nin Xalq artisti, akademik Arif Məlikovu 85 illiyi münasibətilə təbrik edib.

Təbrik məktubunda görkəmli bəstəkarın geniş diapazonlu rəngarəng yaradıcılığı müasir musiqi mədəniyyətimizin parlaq hadisələrindən biri kimi dəyərləndirilib. "Qara Qarayev məktəbinin layiqli davamçısı kimi xalq musiqisi ənənələri və dünya klassik irsini müasir musiqi formaları ilə uğurlu şəkildə birləşdirərək meydana gətirdiyiniz çoxsaylı sənət nümunələri ilə musiqi salnaməmizin daha da zənginləşməsində və ölkə mədəniyyətinin inkişafında müstəsna xidmətləriniz vardır. Özünəməxsus əlvan musiqi çalarları, dərin koloriti və yüksək bədiiliyi ilə seçilən əsərləriniz professionallığın zirvələri olub, musiqisevərlərin daim rəğbətini qazanmışdır. Fəlsəfi düşüncələr və bəşəri duyğularla aşılanmış ecazkar musiqiniz mənəvi kamilliyə can atmaqda insanlara yaxından kömək edir. Zamanın yüksək sənət qarşısında irəli sürdüyü tələblərə cavab verən qiymətli əsərləriniz ölkəmizin hüdudlarından kənarda, dünyanın ən məşhur teatrlarında uğurlu səhnə təcəssümünü tapmışdır", - deyə təbrikdə bildirilir.

Məktubda Arif Məlikovun gənclərin hamisi və mahir pedaqoq olaraq istedadlı musiqiçilər nəslinin yetişdirilməsində uzun illərdən bəri böyük xidmətlər göstərdiyi vurğulanır. Sənətkarın yaradıcılığının dövlət tərəfindən daim lazımınca qiymətləndirildiyi, bəstəkarın Azərbaycanın ən ali təltiflərinə - Heydər Əliyev mükafatına, "Heydər Əliyev" və "İstiqlal" ordenlərinə layiq görüldüyü qeyd edilir.

Azərbaycan Respublikası vətəndaşlarının 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədi ilə qərara alıram:

1. 2000-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1983-1999-cu illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2018-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2018-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 4 sentyabr 2018-ci il.

Salyan pambıqçıları, uğur olsun!

Rayonumuzun pambıq tarlalarında məhsul toplanışına start verilmişdir. Elin qiymətli sərvətinin tez və itkisiz toplanması üçün hər yerdə yüksək yığım tempi müşahidə olunur.

Aqrar rayon hesab olunan Salyanın iqtisadiyyatında pambıqçılıq ənənəvi sahə kimi həmişə öncül mövqeyə malik olmuşdur. Kəndin zəhmət adamları əl-ələ verərək Muğan düzündə əsil xarüqələr yaradıblar. Pambıqçılarımızın sinəsini həmişə ən yüksək dövlət orden və medalları bəzəyib, insanlarımız sosial rifahda yaşayıblar.

Bu günlərdə əkin sahələrində, pambıq tarlalarında xüsusi iş ahəngi vardır. Sanki çöllər də, bol məhsullu sahələr də insanların üzünə gülür. Aylarla çəkilən zəhmət artıq öz bəhrəsini vermişdir. Vaxtında və ardıcıl aparılan becərmə işləri, pambığın alaq otlarından və ziyanvericilərdən təmizlənməsi, cərgələrarasına kultivasiya çəkilməsi, mineral və üzvi gübrələrdən istifadə olunması bu gün fermerin də üzünü güldürür, onunla müqavilə bağlayan məntəqələrin də.

Torpağının sahibi olan kənd adamlarımız yetişdirdikləri məhsulun toplanmasına başlamışlar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin kənd təsərrüfatının, xüsusən pambıqçılığın inkişafına göstərdiyi diqqət və qayğısı, qəbul edilən dövlət proqramları, imzalanan sərəncamlar bu sahədə insanların məşğulluğunun təmin olunması, onların maddi rifah halının yaxşılaşdırılmasına yeni imkanlar açır.

Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin rəhbəri Tariyel Atamalıyev qəzetimizin əməkdaşı ilə söhbət zamanı demişdir ki, rayonda yeni mövsümün pambığının əkilib becərilməsində, tədarükünə hazırlıqda nəzərdə tutulan bütün işlər rayon rəhbərliyi, aqrar sahəyə xidmət edən dövlət və özəl qurumlar tərəfindən ardıcıllıqla həyata keçirilmişdir.

Rayonumuzda bu il 7.055 hektarda məhsul becərilmişdir. Çəkilən zəhmət hədər getməyib, tarlalarda məhsul boldur.

Ümumilikdə 720 nəfərdən çox hüquqi və fiziki şəxs, sahibkarlar özlərinə məxsus və ya icarəyə götürdükləri sahələrdə pambıq əkib becərmişlər. Məhsulun əsasən maşınlarla toplanması üçün pambıq sahələrinin dərmanlanması mütəşəkkil aparılmaqdadır. Artıq 700 hektarda bu iş icra olunub. Pambıq sahələrinin 5000 hektarının məhsulunun texnikanın gücü ilə yığılması nəzərdə tutulmuşdur. Hər gün 100 hektar sahədə dərmanlama işləri aparılır.

Yığım barədə operativ məlumatda deyilir ki, hər gün 80-100 ton "ağ qızıl" toplanır. İndiyə kimi 400 tona yaxın məhsul tədarük olunmuşdur. Sürət getdikcə artır.

Uğur olsun, pambıqçı dostlar!

Salyan rayonunda təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilmişdir

Salyan rayon İcra Hakimiyyətində Təhsil işçilərinin ənənəvi sentyabr konfransı keçirilmişdir. Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsil İnstitutunun şöbə müdiri Bibixanım İbadova, məktəb direktorları, qabaqcıl pedaqoqlar və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Konfrans iştirakçıları əvvəlcə Heydər Əliyev adına parkda Ulu Öndərin abidəsini ziyarət etmiş, abidə önünə gül-çiçək dəstələri düzmüşlər. Sonra tədbir Salyan rayon İcra Hakimiyyətinin konfrans zalında davam etdirilmişdir.

Rayon Təhsil şöbəsinin müdiri Xudaverdi Piriyev "2017-2018-ci tədris ilinin yekunları və yeni dərs ilində qarşıda duran vəzifələr" mövzusunda geniş məruzə ilə çıxış etmişdir. Qazanılan nailiyyətləri artırmaq üçün real imkanların olduğunu vurğulayan Rayon Təhsil şöbəsinin müdiri rayonda tədris prosesinin müasirləşdirilməsi, təhsildə tətbiq olunan yeni innovativ metodların vacibliyini də diqqətə çatdırmışdır. Şöbə müdiri bildirmişdir ki, rayonda 54 ümumtəhsil müəssisəsi fəaliyyət göstərir. Bunlardan 37-si tam orta, 15-i ümumi orta, 2-si isə ibtidai təhsil verir. Bu müəssisələrdə 19 mindən çox şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 2200-ə yaxın müəllim məşğul olur. Hazırda rayonda 6 kənd - Ərəbqardaşbəyli, Yuxarı Xalac-2, I Varlı, Aşağı Kürkənd, Şorsulu və Çadırlı məktəbləri yararsız binalarda yerləşir və yeni tikintiyə ehtiyac vardır.

2018-ci ilin məzunlarından 655 nəfər ali məktəblərə qəbul üçün ərizə vermiş, onlardan 363 nəfəri tələbə adını qazanmışdır ki, bu da 55, 42 faiz göstərici ilə xarakterizə olunur. Bu il məktəbi 1287 şagird ümumi orta təhsil haqqında, 4-ü fərqlənmə, 1056 şagird isə 12-si fərqlənmə olmaqla tam orta təhsil haqqında attestatla başa vurmuşdur.

Qeyd olunmuşdur ki, ötən tədris ilindən X-XI sinif pilləsində şagirdlərin maraq və istəyinə uyğun olaraq Təhsil Nazirliyinin göstərişi ilə rayonun 3 məktəbində şəhər 2 və 4 saylı, Arbatan kənd tam orta məktəblərində pilot olaraq təmayülləşmənin tətbiqinə başlanılmışdır. Bu il həmin təmayül siniflərin şagirdləri ali məktəblərə qəbul zamanı yüksək nəticə göstərmişlər. Eyni zamanda məktəblərdə "Kiçik Akademiyalar" da fəaliyyət göstərir ki, bu da şagirdlərin istedad və yaradıcılıq potensialını üzə çıxarmağa kömək edir.

Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təhsil İnstitutunun şöbə müdiri Bibixanım İbadova konfransda çıxış edərək yeni tədris ilinin başlanması münasibətilə təhsil işçilərini təbrik etmiş, təhsilin inkişafına və onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, təhsil işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılmasına göstərilən qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirmişlər.

Çıxış edənlər - şəhər 7 saylı texniki fənlər təmayüllü məktəb-liseyin kimya müəllimi, Əməkdar müəllim Gülşən Piriyeva, şəhər 2 saylı tam orta məktəbin kimya müəllimi Yeganə Qurbanova, 8 saylı tam orta məktəbin fizika müəllimi Emin Əliyev, Aşağı Kürkənd kənd tam orta məktəbinin direktoru Sitarə Təhməzova, TİAHİ rayon komitəsinin sədri Yaqut Ələsgərova, şəhər 7 saylı texniki fənlər təmayüllü məktəb-liseyin riyaziyyat müəllimi, Əməkdar müəllim Allahverdi Piriyev, Kürqaraqaşlı kənd tam orta məktəbinin direktoru İbadət Cəfərov, şəhər 2 saylı tam orta məktəbin dil-ədəbiyyat müəllimi Aygün Əzizova və başqaları təhsilin fövqündə dayanan məktəbin inkişafı, elm öyrədən müəllimlərin öz üzərlərində işləmək səriştəsi, innovativ metodların tətbiqi ilə bağlı öz fikirlərini söyləmişlər.

Konfransda 600 baldan yüksək nəticə göstərən 28 nəfər məzuna və Respublika Olimpiadasında fərqlənənlərə rayon İcra Hakimiyyəti başçısı tərəfindən qiymətli hədiyyələr təqdim olunmuşdur.

Qəbul imtahanlarında rayonun ən yüksək bal toplayan məzunları - Anaxanım Rüstəmova, Nazpəri Əmənova, Simarə Quliyeva, Elgün Qənizadə, çıxış edərək öz uğurlarından söz açmış, müəllimlərinə, rayon rəhbərliyinə, ölkə başçısına təhsildə yaradılan şəraitə görə dərin minnətdarlıqlarını bildirmişlər.

Sonda konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlanmışdır.

Kənd təsərrüfatı naziri Salyanda vətəndaşları qəbul etmişdir

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər.

Tərtib edilən qəbul cədvəlinə müvafiq olaraq kənd təsərrüfatı naziri İnam Kərimov sentyabrın 14-də Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Salyan, Sabirabad, Neftçala, Hacıqabul və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Qəbuldan öncə nazir İnam Kərimov və Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov şəhərin mərkəzində ucaldılan ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə tər çiçəklər qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Daha sonra nazir İnam Kərimov Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında yaradılan şəraitlə tanış olub.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 40-dan çox vətəndaşın müraciətinə baxıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

Nazir vətəndaşlarla görüş zamanı dövlət başçısının kənd təsərrüfatının inkişafı ilə bağlı imzaladığı sərəncamların kənd təsərrüfatı istehsalçılarının rifah halının yaxşılaşdırılmasına və ölkəmizdə bu sahənin inkişafına təkan verəcəyini vurğulayıb. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin binasında Baş Dövlət Texniki Nəzarət Müfəttişliyinin "Səyyar Xidmət" Qrupu ətraf rayonlardan dəvət olunan mexanizatorlar üçün lazımi xidmət göstərib. Etibarlılıq müddəti bitən traktor və digər mexaniki nəqliyyat vasitələrini idarə etmək üçün 105 mexanizatorun sürücülük vəsiqələri yenisi ilə əvəz edilib, 5 nəfər texnikasını texniki baxışdan keçirib, 5 nəfərin isə texnikası dövlət qeydiyyatına alınıb.

Nazir İnam Kərimov "Səyyar Xidmət" Qrupunun işi ilə maraqlanıb, mexanizatorların müraciətlərini dinləyib, lazımi tövsiyələrini verib.

Pambıqçılıqda ozonlaşdırma

Respublikamızda əhalinin ərzaq məhsullarına olan tələbatını ödəmək üçün yeni texnologiyalar, eləcə də aqrar sahədə tətbiq olunması yolları öyrənilir. Belə əhəmiyyətli işlərdən biri də Milli Aviasiya Akademiyasının Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun alimləri ilə birlikdə "Gəncə-110" pambıq sortunda ozonlaşdırma texnologiyasının tətbiq etməsidir. Onu da deyək ki, ilk dəfə olaraq bu texnologiya Azərbaycanda məhz Salyan rayonunda tətbiq edilib.

Ozonlaşdırma texnologiyasının toxumlarda tətbiqi nəticəsində pambığın cücərməsi nəzarət variantına nisbətən tezləşir, bitkilərin inkişafı, bar toplanması, bar budaqlarının əmələ gəlməsi, o cümlədən yetişkənlikdə də 3-5 gün tezləşmə müşahidə olunur. Məhsuldarlıq daha da yüksəlir.

Bununla bağlı Salyan Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin Qaraçala qəsəbəsi ərazisindəki pambıq sahəsində "Azərbaycanda ozonlaşdırma ilə perspektiv texnologiyaların aviasiyada, təbabətdə, kənd təsərrüfatında tətbiqinin əsasları" mövzusunda elmi-praktiki seminar keçirilib. Alimlərin, mütəxəssislərin və fermerlərin iştirak etdiyi tədbiri giriş sözü ilə açan rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov qonaqları salamlamış, onlara işlərində uğurlar arzulamışdır. Sonra Aqrar Elm və İnnovasiya Mərkəzinin direktoru Vüqar Bayramov, AMEA-nın müxbir üzvü, professor Zeynal Əkbərov, Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Tariyel Atamalıyev, Milli Aviasiya Akademiyası, Elmi-Tədqiqat Aviakosmik Problemlər İnstitutunun Konstruktor Bürosunun rəisi, professor Telman Nizamov, Salyan Regional Aqrar Elm və İnnovasiya Mərkəzinin direktoru Sədrəddin İbrahimov, Bitki Mühafizəsi və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktor müavini Sahib Cabbarov, BM və TB ETİ texniki bitkilərin seleksiyası şöbəsinin müdiri Ələddin Tağıyev və başqaları çıxış etmişlər. Çıxış edənlər pambıqçılıqda ozonlaşdırılmanın əhəmiyyəti və üstünlükləri barədə fermerləri ətraflı məlumatlandırmışlar.

Daha sonra ozonlaşdırma texnologiyasının tətbiq edildiyi 10 hektar pambıq sahəsinə baxış keçirilmişdir.

Qeyd edək ki, ölkəmizdə 50 hektar pambıq tarlasında ozonlaşdırma texnologiyası tətbiq edilib ki, bunun da 10 hektarı Salyan rayonunun payına düşür.

"Aqrolizinq" ASC region üzrə 30 vətəndaşa güzəştli müqavilələr təqdim edilib

"Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti (ASC) "Regionlarda maarifləndirmə və sorğu" layihəsi çərçivəsində növbəti tədbirini Salyanda keçirmişdir.

Salyandakı Heydər Əliyev Mərkəzində keçirilən tədbirdə Şirvan, Salyan, Neftçala, Saatlı, Sabirabad, İmişli və Hacıqabulda pambıq əkini ilə məşğul olan şirkətlərin nümayəndələri, fermerlər, məhsul istehsalçıları və sahibkarlar iştirak ediblər. Görüşdə fermerlər "Aqrolizinq" ASC-nin fəaliyyəti, o cümlədən texnikaların, texnoloji avadanlığın, damazlıq heyvanların lizinqə verilməsi şərtləri, mineral gübrə və pestisidlərin satışı qaydaları, aqrotexniki xidmətlər barədə məlumatlandırılmışlar. Həmçinin vətəndaşlar tətbiq edilən elektron xidmətlər, innovativ yeniliklər barədə maarifləndiriliblər. Diqqətə çatdırılıb ki, layihənin məqsədlərindən biri də vətəndaşlara ASC-nin əlçatanlığının və yaxınlığının təmin edilməsi, bununla əlaqədar onların problemlərini, müraciət və təkliflərini dinləyərək həlli istiqamətində addımların atılmasıdır.

Sonra sahibkarların, fermerlərin və məhsul istehsalçılarının qarşılaşdıqları problemlər və onların həlli yolları müzakirə edilib, təkliflər dinlənilmişdir.

Tədbirin sonunda region üzrə 30 vətəndaşa güzəştli müqavilələr təqdim edilmişdir.

Daha sonra fermer Azər Ağayevin yaratdığı kooperasiya təsərrüfatı ilə tanışlıq olub.

Qeyd edək ki, "Aqrolizinq" ASC yarandığı 2005-ci ildən etibarən Sabirabad, Saatlı, İmişli, Salyan, Neftçala, Hacıqabul rayonları və Şirvan şəhərindən olan 1392 istifadəçiyə lizinq yolu ilə ümumi dəyəri 103 milyon 985 min 306 manatlıq 4304 ədəd kənd təsərrüfatı texnikası verilmişdir.

Şəhidin 50 yaşı qeyd edildi



Salyan şəhər 6 saylı Uşaq bağçasında şəhid Vüqar Qalib oğlu İsayevin anadan olmasının 50 illik yubileyi münasibətilə böyük tədbir keçirilmişdir. Tədbirdə RİH-in məsul işçisi Əzizağa Yaqubov, RİH-in şəhər üzrə inzibati ərazi nümayəndəsi Nazir Bəşirov, şəhidin qardaşı, dayıları, xalası, Respublikanın Əməkdar müəllimləri Gülşən Piriyeva, Allahverdi Piriyev və başqaları iştirak etmişlər.

Tədbirdə bağçanın müdiri Mailə Hacıyeva şəhidin ömür və döyüş yolu barədə məlumat verərək bildirmişdir ki, Vüqar Qalib oğlu İsayev 17 sentyabr 1968-ci ildə Salyan şəhərində dünyaya göz açmışdı. İki il vətəndən çox-çox uzaqlarda hərbi xidmətdə olub. Xocalı soyqırımından, Şuşa, Laçın faciələrindən sonra silaha sarılıb. 1992-ci ilin may ayında könüllü olaraq düşmənlə ölüm-dirim savaşına gedib. İlk döyüş yolu Kəlbəcər bölgəsindən başlayıb. Sonra Ağdərənin Mextaraq, Kasapet, Nerkin-Orataq, Orta Güneypəyə, Yuxarı Güneypəyə, Gülyataq, Canyataq kəndlərinin azad edilməsində qəhrəmanlıq göstərib. Bir neçə döyüşçü yoldaşını ölümün cəngindən alıb. Torpaqlarımız düşmənlərdən təmizlənməyincə silahı yerə qoymayacağına and içib. Amma arzusu, istəyi gözündə-könlündə qalıb.

Vüqar İsayev 14 fevral 1993-cü ildə Ağdərənin Mehmanə kəndi uğrunda gedən şiddətli döyüşlərdə düşmən gülləsinə tuş gəlib. Ömrünün 25 yaşında əbədi olaraq dünyasını dəyişib. Salyan şəhər 6 saylı Uşaq bağçası 1994-cü ildən onun adını daşıyır.

Çıxış edənlər dövlətimiz tərəfindən Qarabağ şəhidləri və müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərildiyini vurğulamış, onların sosial problemlərinin həlli istiqamətində atılan addımlardın söz açmışlar.

Sonra söz bağçanın balaca fidanlarına verilmişdir. Uşaqlar vətənpərvər ruhda olan səhnəciklər nümayiş etdirmiş, şəhidin qələmə aldığı öz şeirlərini söyləmişlər. Tədbir iştirakçıları şəhid Vüqar İsayevin həyat yolundan bəhs edən videoslayda tamaşa etmişlər.

Sonda şəhidin dayısı Ramiz bağçanın kollektivinə, uşaqlara belə tədbiri ərsəyə gətirdiyinə görə, minnətdarlığını bildirmişdir.

Milli Musiqi Gününə həsr olunan "Bizim Musiqi" gecəsi

Salyan rayon Mədəniyyət Mərkəzində 18 sentyabr Milli Musiqi Gününə həsr olunan "Bizim Musiqi" adlı gecə keçirilib. Gecəni giriş sözü ilə açan Mərkəzin direktoru Lətif Zərbəliyev Azərbaycan musiqi dünyasından danışıb. Sonra çıxış edənlər Mədəniyyət Mərkəzinin əməkdaşları Kürçaylı Məmmədov, Xalidə Bəşirova, Leyla Babayeva, şəhər 1 saylı klubun müdiri Həqiqət Əsgərova, Salyan Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Səidə Əliyeva Milli Musiqi Gününün Azərbaycan mədəniyyət və incəsənətində bir bayram kimi qeyd olunduğunu diqqətə çatdırıblar. Qeyd olunub ki, 1995-ci ildən bəri dahi bəstəkar Üzeyir Hacıbəylinin doğum günü respublikamızda Milli Musiqi Günü kimi qeyd edilir. Üzeyir Hacıbəyli Azərbaycan mədəniyyəti tarixinə böyük bəstəkar, opera sənətinin banisi kimi daxil olub. O, Azərbaycan, rus və dünya klassik ədəbiyyatı incəsənətinin ənənələrini dərindən qavrayıb, doğma xalqının mədəniyyətini yüksəklərə qaldırmaq məqsədilə yazıb yaradan böyük bəstəkar ömrünün təqribən 45 ilini bu işə həsr edib. 1908-ci ilin yanvarında tamaşaya qoyulan ilk Azərbaycan operası "Leyli və Məcnun"un müəllifi Ü.Hacıbəyli yeddi il ərzində bir-birinin ardınca beş opera, üç operetta yaradıb. Bundan başqa onun dünya şöhrətli bəstəkar Müslüm Maqomayevlə tale qardaşı olduğu da diqqətə çatdırılıb. Gecədə Üzeyir Hacıbəyliyə həsr olunan videoçarx, "Arşın mal alan", "Üzeyir ömrü" filmlərindən fraqmentlər nümayiş olunmuşdur.

Ölkəmizə xaricdən 100 ədəd pambıqyığan kombayn gətirilib

Sentyabrın 8-də "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin Salyan təchizat bazasında respublikada pambıq yığımının başlanması ilə əlaqədar alınan yeni pambıqyığan kombaynların təqdimatı olub. Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin müvafiq qurumlarının mütəxəssisləri, pambıq istehsalı ilə məşğul olan şirkət nümayəndələri, həmçinin fermerlər, sahibkarlar və mexanizatorlar iştirak ediblər.

Tədbirdə çıxış edən "Aqrolizinq" ASC-nin şöbə müdiri İsrafil İsmayılov aqrar sektorun inkişafına göstərilən dövlət dəstəyindən, pambıqçılığın inkişafı ilə əlaqədar Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində görülən işlərdən danışıb. Qeyd edilib ki, ölkədə kənd təsərrüfatının bütün sahələrinin inkişaf etdirilməsi üçün kifayət qədər maddi-texniki baza yaradılır, ən müasir texnika və texnoloji avadanlıqlar fermer və sahibkarların istifadəsinə verilir.

Diqqətə çatdırılıb ki, hazırda ölkəmizin ayrı-ayrı pambıqçılıq təsərrüfatlarında 303 ədəd pambıqyığan kombayn var. Məhsul yığımı ərəfəsində respublikamıza Hollandiyada istehsal olunmuş daha 100 ədəd kombayn gətirilib və maşınlar lizinq yolu ilə məhsul istehsalçılarına paylanılır.

Tədbir iştirakçıları təqdimatdan sonra yeni pambıqyığan kombaynların işlək mexanizmi ilə yaxından tanış olublar.

Fermerlər şurası qabaqcıl fermerlərlə görüş keçirib

Salyan Dövlət Aqrar İnkişaf Mərkəzində keçirilən görüşdə yeni yaradılan fermerlər şurasının gələcək fəaliyyətləri barədə müzakirələr aparılıb. Rayonun qabaqcıl fermerlərinin iştirakı ilə keçirilən toplantıda Salyan Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Tariyel Atamalıyev, fermerlər şurasının sədri Emin Mirzəyev, fermer Azər Ağayev və başqaları ölkəmizdə aparılan aqrar islahatlar haqqında danışıblar. Bildirilib ki, Prezident İlham Əliyev Kənd Təsərrüfatı Nazirliyinin qarşısında fermerlərə daha yaxın olmaq, onların problemlərini dinləmək və çətinliklərin həlli yollarını birgə axtarmaq kimi vəzifələr qoyub. Əsas məqsəd fermerlərin torpaqdan daha səmərəli istifadə etməklə bol məhsul istehsal edib, daha çox qazanmalarına yardım göstərməkdən ibarətdir. Fermerlərin problemlərini müəyyən etmək, onların öz fəaliyyətlərini daha mükəmməl qurmasına kömək göstərmək, həmçinin kooperasiyaların yaradılması da qarşıda duran əsas vəzifələrdəndir.

Görüşdə o da bildirildi ki, şura üzvləri öz yaşadıqları ərazi üzrə fermerlərin qarşılaşdıqları çətinlikləri, eləcə də təsərrüfatçıların təkliflərini yerindəcə araşdırıb əlaqədar qurumlara məlumat verəcək. Yaradılan şuralar təsərrüfatçılar və Kənd Təsərrüfatı Nazirliyi arasında sıx əlaqəni təmin edəcək.

Görüşdə çıxış edən fermerlər də şuraların fəaliyyətinin zəruri olduğunu diqqətə çatdırıblar. Bildirilib ki, səylər birləşdirilsə, qarşıya qoyulan məqsədə daha tez çatmaq mümkün olacaq.

Görüşün sonunda fermerləri maraqlandıran suallar cavablandırıb.

1 oktyabr- Prokurorluq İşçilərinin peşə bayramıdır

Ədalətin və qanunun keşiyində

Firdovsi NEMƏTLİ,
Salyan rayon prokuroru,
baş ədliyyə müşaviri

Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları və ölkəmizin hüquq ictimaiyyəti əlamətdar hadisə olan Prokurorluğun 100 illik yubileyini qeyd etməyə hazırlaşır. 100 il əvvəl müstəqil dövlət quruculuğuna başlayan Azərbaycan xalqının keşməkeşli tarixində hüquq-mühafizə sisteminin inkişaf etdirilməsi prosesi də xüsusi yer tutur. 1918-ci il mayın 28-də İstiqlal Bəyannaməsi elan olunduqdan sonra ölkəmizin tarixində ilk milli dövlət qurularkən Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq təsis edildi. Ulu öndər Heydər Əliyev məhz bu tarixi faktı əsas tutub, tarixi varislik ənənələrinə sadiqlik nümayiş etdirməklə prokurorluğun müasir demokratik cəmiyyətdə və hüquqi dövlət quruculuğunda roluna yüksək qiymət verərək 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə hər il oktyabrın 1-i prokurorluq işçilərinin peşə bayramı kimi təsis edibdir.

Ötən 100 il ərzində Azərbaycan Prokurorluğu digər dövlət orqanları ilə qarşılıqlı əlaqədə gənc respublikada dövlətçiliyin dayaqlarının möhkəmləndirilməsi, qanunçuluq və hüquq qaydasının təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsi sahəsində fəal rol oynadı. 1991-ci ildə Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra isə prokurorluq müharibə ilə müşayiət olunan siyasi çalxantılar şəraitində baş alıb gedən cinayətkarlığın cilovlanması, Qarabağın müdafiəsi üçün toplanan, sonradan hakimiyyət boşluğundan istifadə edərək dövlətə meydan oxumağa başlayan silahlı dəstələrin zərərsizləşdirilməsi, silahlı qiyam və dövlət çevrilişi cəhdlərinin qarşısının alınması, təqsirli şəxslərin barəsində ədalət mühakiməsinin həyata keçirilməsi işində dövlətçiliyə sədaqətlə xidmətinə görə xeyli nüfuz qazandı.

Müstəqillik illəri Azərbaycan prokurorluğunda həm də islahat və yenilənmə prosesləri ilə əlamətdar oldu. Prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların ilkin əsasını və qanunvericilik bazasını 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil edir. Ali Qanunumuzda ilk dəfə məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili, fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edildi. Respublikamızda hüquqi islahatların ardıcıl həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi, qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə 1996-cı ildə Hüquqi İslahatlar Komissiyası, 1998-ci ildə isə Azərbaycan Respublikasının dövlət idarəetmə sistemində islahatlar aparılması üçün Dövlət Komissiyası yaradıldı. Hüquqi İslahatlar Komissiyası tərəfindən hazırlanmış "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Prokurorluq haqqında" qanunların, demokratik cəmiyyətin tələblərinə cavab verən, beynəlxalq standartlara uyğun yeni məcəllələrin və digər qanunların, normativ-hüquqi aktların qəbulu islahatların həyata keçirilməsinə baza hazırladı.

Heydər Əliyevin 1998-ci il noyabrın 28-də prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda prokurorluq orqanlarına verdiyi yüksək qiymətin təzahürü olan: "Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" sözləri bütün əməkdaşlarımız üçün böyük stimul oldu. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il aprelin 26-da Prokurorluğun rəhbər işçiləri ilə keçirdiyi tarixi görüşdə prokurorluq orqanlarında yaranmış qeyri-sağlam mühit, vəzifədən sui-istifadə hallarına yol verilməsi kimi neqativ hallar kəskin tənqid edilməklə, onların aradan qaldırılması üçün qısa müddət ərzində ən qəti tədbirlərin görülməsi prokurorluğun yeni rəhbərliyinin qarşısında mühüm bir vəzifə kimi qoyuldu. Məhz bu müşavirədən sonra Azərbaycan Prokurorluğunda hərtərəfli islahatlara start verildi.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təklifi ilə 2002-ci ildə "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən Azərbaycan Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququnun verilməsi, Azərbaycan Respublikası Prezidentinin 3 mart 2004-cü il tarixli Sərəncamı ilə Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin məhz Azərbaycan Respublikasının Baş prokuroru yanında yaradılması prokurorluğa dövlət səviyyəsində inam və etimad kimi qiymətləndirilməlidir.

Cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizənin kəsərliliyinin daha da artırılmasının, digər hüquq-mühafizə orqanları ilə keyfiyyətcə yeni müstəvidə qurulmuş qarşılıqlı əlaqələrin gücləndirilməsinin nəticəsidir ki, hazırkı dövrdə kriminogen durumun dinamika və strukturunda müsbət dəyişikliklərə nail olunub, mütəşəkkil cinayətkarlığın ən təhlükəli təzahürlərinə qarşı barışmaz mübarizə aparılıb, qatı cinayətkar dəstələr zərərsizləşdirilib, cinayət törətməkdə təqsirli şəxslər layiq olduqları məsuliyyətə cəlb ediliblər.

Cinayət işlərinin istintaqı və təhqiqatı zamanı kriminalistikanın son nailiyyətlərindən, istintaq təcrübəsinin qabaqcıl metodlarından istifadə edilir, müasir standartlara cavab verən avadanlıqlar əldə edilibdir.

Azərbaycan Respublikasının Prokurorluğu başqa dövlətlərin hüquq-mühafizə və digər səlahiyyətli orqanları, beynəlxalq təşkilatlarla əməkdaşlığa mühüm əhəmiyyət verərək ekstradisiya, hüquqi yardım, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində beynəlxalq müqavilə və konvensiyalarda təsbit edilmiş öhdəliklərin icrasında öz səlahiyyətləri çərçivəsində fəal iştirak edir. Fəaliyyətimizdə dünya prokurorlarının ilk və yeganə beynəlxalq qurumu Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlığa xüsusi yer verilir.

Aparılmış kadr islahatları nəticəsində rəhbər vəzifələrə təşkilatçılıq və yüksək peşə hazırlığına malik olan, təşəbbüskar, dövlətçilik ənənələrinə sadiq işçilərin, əsasən də müasir dünyagörüşlü gənclərin irəli çəkilməsinə xüsusi diqqət yetirilir. 2002-ci ildən Baş Prokurorluq tərəfindən Tələbə Qəbulu üzrə Dövlət Komissiyası ilə əlaqəli şəkildə, tam aşkarlıq şəraitində, şəffaf prosedurlar əsasında, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin Azərbaycandakı səfirliklərinin, beynəlxalq təşkilatlar və kütləvi informasiya vasitələrinin iştirakı və nəzarəti ilə mütəmadi keçirilmiş müsabiqələr nəticəsində 700-dək gənc hüquqşünas prokurorluqda qulluğa qəbul edilmişdir ki, bu da kadr tərkibinin təxminən 70 faizini təşkil edir. Prokurorluğun 100 illik yubileyi ərəfəsində də növbəti belə qəbul prosesi yekunlaşmaqdadır. Prokurorluğa işə qəbul üçün müraciət etmiş yüzlərlə gənc hüquqşünas arasından imtahanlardan uğurla keçən 86 nəfəri artıq Ədliyyə Akademiyasında son hazırlıq kursunu başa vurmaqdadır. Bayram ərəfəsində onlar xidməti vəsiqələrini təntənəli mərasimlə alaraq müstəqil Azərbaycan dövlətinə xidmət etməyə başlayacaqlar.

Prokurorluq işçilərinin sosial müdafiəsi və maddi təminatı məsələləri də dövlət rəhbərliyinin diqqətindən kənarda qalmamışdır. Ötən illər ərzində iş şəraitinin yaxşılaşdırılması, maddi-texniki bazanın gücləndirilməsi sahəsində də əhəmiyyətli işlər görülübdür. Yeni tikilmiş və əsaslı təmir olunmuş rayon (şəhər) prokurorluqları tam şəkildə müasir tələblərə cavab verən avadanlıqla təmin olunub, normal iş şəraiti yaradılıbdır.

Sonda Prokurorluğun 100 illik yubileyi və peşə bayramı münasibətilə prokurorluq orqanlarının hər bir işçisini, veteranları və onların ailə üzvlərini təbrik edir, bütün əməkdaşlarımıza bu şərəfli xidmətlərində uğurlar arzu edirəm.

20 sentyabr-Neftçilər Günüdür

Neftçıxarmada yeni üsullar tətbiq edilir

Neft Azərbaycan xalqının ən böyük təbii sərvətlərindəndir. Uzun illər bu sərvətlərimizdən istifadə edə bilməsək də, Azərbaycan dünyada neft istehsal edən ölkələrdən biri kimi məşhur olmuşdur. Məhz müstəqilliyimizi yenidən bərpa etdikdən sonra Azərbaycan nefti milli sərvətimizə çevrilmişdir.

Azərbaycanın müstəqil dövlət kimi inkişafında müstəsna xidmətləri olan ümummilli liderimiz Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan nefti xalqımızın rifah halının yüksəldilməsinə, iqtisadi gücünün artırılmasına xidmət etmişdir. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasına əsasən imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın qapılarını xarici investorların üzünə açmışdır. 1994-cü il sentyabrın 20-də Azərbaycan öz sərvətinin tam sahibi olduğunu bir daha nümayiş etdirməklə Avropanın dayanıqlı enerji təchizatçısı rolunu üzərinə götürdü. Ötən il isə "Əsrin müqaviləsi"nin istismar müddətinin 2050-ci ilə qədər uzadılması barədə sərmayəçilər arasında yenilən müqavilə imzalanmışdır. Bu yaxınlarda Xəzər dənizinin hüquqi statusunun imzalanması da Azərbaycan neft sahəsinin sabit inkişafa malik olduğunun göstəricilərindəndir. Ümumilikdə, Azərbaycan karbohidrogen ehtiyatlarına görə, Avropa bazarında layiqli tərəfdaş kimi tanınmaqdadır.

Yaşlı nəsil yaxşı xatırlayır ki, respublikamızın neftçıxarma tarixində Salyan neftçilərinin də əməyi böyük olmuşdur. 50 ildən artıqdır ki, rayonumuzun ərazisində sənaye üsulu ilə neft hasil edilir. Uzun illər bu işlə Salyan neft və qazçıxarma idarəsi məşğul olmuşdur. 1990-cı illərdən bu yataqlar əsasında "Salyan OİL" LTD müştərək müəssisəsi təsis edilmiş və yeni şirkət rayonun Qarabağlı və Kürsəngi ərazilərində fəaliyyət göstərən istehsal sahələrini birləşdirməklə 20 ildən çox bir müddətdə qazma və istismar işləri ilə məşğul olurlar. Bu yataqlarda yeni istismar quyuları qazılmasa da, hasilatın sabit saxlanılması neftçilərin əsas prinsipidir. Sutkalıq hasilat 410-420 ton təşkil edən yataqlarda istehsalın sabit saxlanılması üçün müxtəlif mühəndis-geoloji tədbirlər həyata keçirilir. Məlumdur ki, neft sənayesinə qoyulan investisiyaların əsas hissəsini yeni texnologiyaların tətbiqi təşkil edir. Çalışdığımız şirkətdə də dünyada istifadə olunan mütərəqqi texnologiyalar tətbiq edilməkdədir. Hazırda mühəndislərimiz laylara isti hava vurulması üsulunu tətbiq edilməsi ərəfəsindədirlər. Əgər bu müsbət nəticə verərsə, respublikamızın digər neft yataqlarında da tətbiqi nəzərdə tutulur. Pilot layihənin perspektivləri barədə mütəxəssislərimiz çox nikbindir.

Məlumdur ki, neft və qaz istehsalı nəticəsində ətraf mühitə dəyən ziyanın təsirinin azaldılması çox aktual bir problemdir. Bu məqsədlə şirkətin istismar etdiyi yataqlarda Amerika texnologiyasına əsaslanan istismar metodları tətbiq edilməkdədir. Bu üsulun üstünlüyü ondadır ki, quyulardan gələn neftli şlamlar qurğularda yüksək təzyiq nəticəsində təmizlənir və neytrallaşdırılır. Kürsəngi yatağında rezervuar parkı yenilənməkdədir. Boruyuma sahəsi də tikilmiş və buradakı qurğular yenilənmişdir. Lay sularının təmizlənməsi və yenidən laylara vurulması istiqamətində də yeniliklər maraq doğurur. Ümumilikdə, həyata keçirilən mühəndis-texniki tədbirlər, müəssisənin istehsal gücünün sabit saxlanılmasına xidmət etməkdədir. İlin əvvəlindən bəri 160 min ton neft hasil edilmişdir. İllik proqnozların da uğurlu alınması üçün mühəndis və şəxsi heyətimiz səylə çalışır. Mehman Dadaşovun rəhbərlik etdiyi yeraltı təmir sexi, Fəxrəddin Həsənovun rəhbərlik etdiyi Kürsəngi neft və qazçıxarma sexi, Şamil Baxışovun rəhbərlik etdiyi Qarabağlı neft və qazçıxarma sexinin peşəkar neftçiləri çoxillik ənənəni uğurla davam etdirirlər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə hazırda ölkəmizdə çox uğurlu iqtisadi siyasət aparılır. Ölkəmiz çox böyük neft və qaz kəmərlərinin müəllifidir. Azərbaycandan İtaliyaya qədər uzanan Cənub qaz Dəhlizində işlər uğurla davam etdirilir. Bir sıra Orta Asiya respublikaları da Azərbaycanın texniki imkanlarından istifadə edib dünya bazarına çıxmaq istəyindədirlər. Bütün bunlar Azərbaycanda neft sənayesinin hələ uzun illər prioritet istiqamət olacağına sübutdur.

20 sentyabr-Neftçilər Günü münasibətilə şirkətimizin kollektivi adından respublikamızın bütün neftçilərini təbrik edir, onlara çətin və şərəfli işlərində uğurlar arzulayıram.

Balakişi BAĞIROV,
"Salyan OİL" LTD əməliyyat şirkətinin Kürsəngi və Qarabağlı yataqları üzrə sahə rəhbəri.

Tələbə adınız mübarək!

Xəbər verdiyimiz kimi, bu il qəbul imtahanlarında 600 baldan yüksək nəticə göstərən abituriyentlərimiz çoxdur. Bu, onu göstərir ki, tədrisin keyfiyyəti ilbəil yüksəlir, elmə, biliyə olan maraq artır. Ötən sayımızda tələbə adını qazanmış rekordçularla oxucularımızı tanış etmişdik. Bu sayımızda da sayılıb-seçilənlərin, cədvəldə öz zəhmətləri ilə münasib yer tutanların bir qismi ilə də tanışlığımızı davam etdiririk.

Rayonumuzun Kürqaraqaşlı kənd tam orta məktəbindən Vəlizadə Sevil Mahir qızı gəlir sırada. Sevil 629 balla Azərbaycan Tibb Universitetinin müalicə işi fakültəsinin tələbəsi adını qazanıb. Sevindirici hal odur ki, qardaşı Vəlizadə Toğrul da bu il 600 baldan yüksək nəticə göstərənlər sırasındadır. O, da 618 balla Azərbaycan Polis Akademiyasına daxil olub. Ailə bacı-qardaşın bəxş etdiyi sevincli anları yaşayır.

***

Şəhər 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseyin məzunu Şamil Müşfiq oğlu Səmədzadə builki qəbul imtahanlarında 600 balı keçən

abituriyentlər sırasındadır. O, 608 bal toplayaraq kompüter elmləri ixtisası üzrə Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə daxil olmuşdur. Arzusu ali məktəbdə təhsil aldığı illərdə gecə-gündüz yorulmadan çalışıb seçdiyi ixtisasın incəliklərinə yiyələnmək, yüksək səviyyəli mütəxəssis kimi xalqa xidmət etməkdir. Şamil yüksək nəticə ilə ali məktəbə daxil olmaqla ailə üzvlərini, müəllimlərini, doğmalarını sevindirdiyinə görə məmnunluq, fərəh hissi keçirdiyini, tələbə olarkən də ona bəslənilən etimadı doğrultmağa çalışacağını bildirdi. Şamilin atası Müşfiq də ali təhsillidir. Anası İlahə xanım isə evdar qadındır.

***

Məktəb-liseydən bildirdilər ki, bu il həmin təhsil ocağından yüksək balla tələbə adını qazanan üç məzundan biri də Hüseynov Kənan Yusif oğludur. Kənan 635 balla Polis Akademiyasında təhsilini davam etdirəcək.

***

Əzizova Lalə Rahil qızı da şəhər 2 saylı tam orta məktəbin məzunudur. Lalə də istəyinə qovuşub. O, 624 balla BDU-nun riyaziyyat müəllimi fakültəsinə daxil olub. Bizim Lalə həvəslə danışır ki, sınaq imtahanlarında yaxşı bal toplayırdım. Amma heç kim inanmırdı ki, mən 600-dən yuxarı nəticə göstərəcəyəm. Bircə özümün daxilimdə inamım var idi. O inam da yoluma işıq saçdı. Çox sevinirəm. Valideynlərim də sevinir.

Lalənin atası Rahil xarrat, anası Sonaxanım isə rayon peşə liseyində müəllim işləyir. Ailədə üç övladın sonbeşiyi olan

Lalə müəllimləri Yaşar Rzayevə, Zahirə Xəlilovaya, Aygün Əzizovaya, Heyran Orucovaya minnətdardır. Lalə Əzizova gələcəkdə respublikanın tanınmış riyaziyyatçıları sırasında yer almaq iddiasındadır. Niyyətin arzularına işıq salsın,-deyirik.

***

Növbəti qəhrəmanımız Yolüstü kənd tam orta məktəbin məzunu Haxıyeva Təhminə Şəhyar qızıdır. Təhminə 630 balla Azərbaycan Dillər Universitetinin tərcüməçilik (ingilis dili) fakültəsində təhsilini davam etdirəcək. Təhminə ali məktəbə birinci mərhələdə topladığı balla daxil olub. Təhminə ondan asılı olmayan səbəbdən ikinci turda iştirak edə bilməyib. Deyir ki, ikinci tura qoşulsaydım, nəticələrimi daha da artıra bilərdim.

Təhminənin atası ali məktəbi Leninqradda (indiki Sankt-Peterburqda) bitirib. İndi Murmanskda inşaatda çalışır.

- Ən xoş anım atama topladığım bal və bir də daxil olduğum ali məktəb xəbərini verməyim oldu. Uzaqdan uzağa atamı sevindirdim-deyə Təhminə bildirdi.

Sonrakı uğurlarının işığına toplayasan doğmalarını, Təhminə.

***

Hüseynova Umuxanım Cavid qızı da Yolüstü kənd tam orta məktəbinin yetirməsidir. Umuxanım əvvəlki turda 562 bal toplamışdı. Sonradan bu nəticəni 47 bal artıraraq öz hesabına 609 bal yazdırmış oldu. Cədvəlin 22-ci pilləsində yerini qərarlaşdırdı. Ailənin ilki olan Umuxanım BDU-nun hüquq fakültəsinin tələbəsi adını qazanıb. Böyük sevinc, qürur, fərəh hissləri yaşadıb ailəsinə. Öyrəndik ki, bizim bu qoçaq qızın babası Əlisəf müəllim 35

il Yolüstü kənd tam orta məktəbinin direktoru olub. Umuxanım da söz veribmiş ki, bu il yüksək nəticə göstərməklə, bu məktəbin şöhrətini ucaldacaq. Atası qızının ədalətli, doğrudürüst haqq işi uğrunda mübarizə aparacağına çox inanır. Özü isə daxil olduğu ali təhsil müəssisəsinin auditoriyaları arasında respublikanın tanınmış hüquqşünaslarından qanunlarımızın aliliyini öyrənməyə tələsir.

***

Həsənova Zəhra Arif qızından söz açaq. Zəhra 8 saylı tam orta məktəbdən seçilənlərin üçüncüsü, cədvəlin 25-ci pilləsinin sahibidir. Onun atası dəmiryolçu, anası evdar qadın-

dır. Ailənin ikincisi olan Zəhranın arzuları böyük olub. Bu çalışqan, zəhmətkeş qız həmişə də vaxtdan, onun azlığından gileylənib. Əslində o, həkim olmaq istəyirdi. Deyir zəhmətim buraya qədərmiş. Seçim qarşısında qalanda kimya müəllimliyini özümə daha yaxın bildim. Qeyd edir ki, uğur əlçatmaz deyil. Gərək onu özün reallaşdırasan.

Bundan sonra Zəhra BDU-nun kimya müəllimi fakültəsində təhsilini davam etdirəcək. Vaxtını hər bir işə çatdıra bilən, Zəhra! Əl çatası uğurların bol olsun!

***

Rüstəmova Püstə Tərlan qızı da 8 saylı tam orta məktəbin yetirməsidir. Püstənin hesabında 604 balı var. Onun

atası Tərlan meliorator, anası Şəfayət xanım isə Dayıkənd kənd tam orta məktəbin ibtidai sinif müəllimidir. Bəstəboy, sakit, özü haqqında səbr və təmkinlə danışan Püstə BDU-nun yeni açılan tarix bölməsi üzrə tədrisin ingilis dili fakültəsinə daxil olub. Son ayların sıçrayışla irəliləyişi Püstəni o qədər də qane etmir. Ali məktəbdə daha yüksək nəticə göstərmək, seçilmək, imkanlarını, istedadını göstərməyə tələsir Püstə. Onu tanıyanlara, bizə isə gözləmək qalır. Yeni uğurlarına sevinək.

P.S. Tələbə adını qazananların hər biri onların bu pilləyə yüksəlməsində öz müəllimlərinə sonsuz minnətdarlıqlarını bildirdilər. Əziyyəti hədər getməyən, bu tələbələrlə sevinən müəllimləri biz də təbrik edirik.

Ən böyük hədiyyə

Anası Səkinə xanımı təbrik edənlər çox oldu. Gül-çiçək dəstələri otağını bəzədi. Yeni yaşında uğurlar arzuladılar. Hər bir təbrikə nəvazişlə, mehribanlıqla təşəkkürünü bildirdi. Lakin bir telefon zəngi, telefonla edilən təbrik gözü yolda, qulağı səsdə olan ananı silkələdi. Yaz yağışı təkin doldu, boşaldı. İçindəki sevinc, fərəh gözlərinə dolub oradan da yanaqlarına axdı. Göz yaşları içində sevinc payladı ətrafdakılara. Doğmalar, yaxınlar şərik oldular bu sevincə…

Onun haqqında bir həmyerli kimi yazıram. Harun Emil oğlu Ramazanlı. Harun elm dalınca ilk dəfə əlinə çanta alıb şəhər 1 saylı humanitar fənlər təmayüllü məktəb-liseyə gedib. Altıncı sinfə qədər orada oxuyub. Sonra Şirvan şəhər "İstək" liseyinə imtahan verib və qəbul olunub. Tərbiyəli davranışı, yüksək biliyi ilə buranı Fərqlənmə Attestatı ilə bitirib. Builki qəbul imtahanlarında Harun 682 balla Dövlət Təhlükəsizlik Xidməti Akademiyasının hüquqşünaslıq fakültəsinin tələbəsi adını qazanıb.

Gülərüzlü, xoş simalı bu gənclə görüşüb söhbətləşdim. Qısa, lakonik, məntiqli, bir sözlə, konspirativ cavablar verən Harun bildirdi ki, dayım bu xidmət növünün uniformasını daşıyır. Mənim də uşaqlıqdan böyük həvəsim vardı bu sahəyə. Çalışdım, niyyətim məni arzularımın mənzilinə yetirdi. Qətiyyətlə: "Dövlətə, dövlətçiliyə xidmət edəcəyəm",-dedi

Babası Aftandil Məlikova, anası Səkinəxanıma, yaxınlarına, doğmalarına zəhmətinin ilk bəhrəsini dadızdırdı Harun. Rayonumuzda rekordçular cədvəlində üçüncü yer həcmindədir onun uğuru. Nailiyyəti qonşu şəhərin payına düşsə də, doğma torpağımızın yetirməsidir.

O gün ən böyük, ən dəyərli hədiyyəsini aldı Səkinəxanım. Harun tələbə kimi anasını təbrik etdi. Anası kövrəldi. Babası əllərini çal saçlarına çəkdi. Nənəsi övladının sevincinə qoşuldu. Yerbəyerdən dualar səsləndi: Harunun bundan sonrakı uğurlarına sevinək, İnşallah.

LEYLA.

5 oktyabr-Beynəlxalq Müəllim Günüdür

Hər könüldə yeri olanların zəhməti hədər getmir

Qələmə aldığım bu yazının qəhrəmanı 4 ildir ki, Kərimbəyli kənd tam orta məktəbinə direktor təyin edilib. Ramil Saməddin oğlu Zeynalov ziyalı ailəsində doğulub. Atası Saməddin müəllim Azərbaycan dili və ədəbiyyat müəllimi işləyib. Ramil müəllim də onun yolunu davam etdirir. Lənkəran Dövlət Universitetində bakalavr təhsili alıb (1999-2003). Elə həmin ildən də parta arxasında oturub onu dinləyənlərə ürəkdən ana dili və ədəbiyyatı fənnini tədris etməyə başlayıb. 2011-ci ildə magistraturanın qiyabi şöbəsini başa vurub. 2013-cü ilə Sumqayıt Dövlət Universitetinin doktoranturasının Azərbaycan dili ixtisasına daxil olub. Buradakı təhsilini müvəffəqiyyətlə başa çatdıran Ramil müəllimin hazırda BDU-da dissertasiya işinin müzakirəsi gedir. Artıq dörd tanınmış professor, dilçi alim onun dissertasiya işinə müsbət rəy verib. İxtisas imtahanından yüksək qiymət alaraq, ilin sonuna kimi müzakirələri yekunlaşdırmaq niyyətindədir. Filologiya üzrə fəlsəfə elmləri doktoru alimlik dərəcəsi adı almaq uğrunda gərgin səy göstərən kənd məktəbinin direktoru Mahmud Kaşğarinin "Divanilüğət-it-türk" əsərində" atalar sözü və məsəllərin sintaktik xüsusiyyətləri" adlı elmi iş üzərində çalışıb dissertasiya işini yekunlaşdırıb. Elmi rəhbəri, dilçi alim, elmlər doktoru, professor Astan Bayramov bizim müəllimin elmi axtarışlarından çox razıdır.

2014-cü ildən isə Kərimbəyli kənd tam orta məktəbinə rəhbərlik edir. İki oğlu var Ramil müəllimin. Həyat yoldaşı da tarix müəllimi ixtisası üzrə ali təhsil alıb.

Ortaq türk ədəbiyyatı qədim dövrdə Orxan-Yenisey abidələrinin, orta dövrdə isə dörd fundamental, möhtəşəm klassik əsərin üzərində yüksəlir. Bunlar türk və dünya ədəbiyyatının ən nadir incilərindən biri sayılan "Dədə Qorqud" dastanları, bəşər tarixinin və mədəniyyətinin həcm etibarı ilə ən böyük əsəri olan "Manas"dastanı, böyük türk mütəfəkkiri, şair və dövlət xadimi Yunis Xas Hacib Balasağunlunun "Qutadğu Bilig" poeması və ilk türk ensiklopedisti, dahi dilçi, filoloq, etnoqraf, mədəniyyətşünas Mahmud Kaşğarinin "Divanü lüğət-it-türk"əsəridir. Bu universal bir əsər kimi bütün türk dillər qrupunu (oğuz, qıpçaq, qarluq) dil və ləhcələrin fovqündə dayanan, onlar arasında heç bir fərq qoymadan istinasız olaraq hamısını əhatə edən və özündə cəmləşdirən son dərəcə zəngin xəzinədir.

Ramil müəllim indiyə qədər öz elmi işində divana daxil olan 312-yə qədər atalar sözü və məsəllərin sintaktik xüsusiyyətini araşdırıb. Onun bu sahədə artıq 12 elmi əsəri var. Məqalələri Prezident yanında Ali Attestasiya Komissiyasının nəzdindəki elmi jurnallarda çap olunub. 3 məqaləsi Türkiyədə, Ukraynada və Qazaxıstanda dərc olunan elmi jurnallarda yer alıb. Bu ilin may ayında Türkiyənin Ufuk Universitetində Uluslararası Kültür və Bilim Konqresində "Türk dillərində mürəkkəb cümlənin təşəkkül tarixi" adlı məruzə ilə çıxış edib. Noyabr ayının sonlarında isə "Azərbaycan-Türkiyə əlaqələrinin 100 illiyi"nə həsr olunmuş Beynəlxalq Elmi Konfransa dəvət alıb. İnformatika və ingilis dilini də öyrənməyə vaxt ayırır.

Məktəb direktoru bildirdi ki, müəllim peşəsi bütün vəzifələrdən şərəflidir. Bir şeirdə deyildiyi kimi, hər könüldə yeri olur müəllimlərin. Şagirdlərdə elmə həvəs, maraq oyadan, biliklərinə işıq salan, beyinlərə nur çiləyənlərin zəhməti hədər getmir. Bildirir ki, 2015-ci ildə məktəbimizin şagirdi Respublika Fənn Olimpiadasında Azərbaycan dili və ədəbiyyatı fənnindən bürünc medalın sahibi oldu. 2018-ci ildə başqa bir şagirdimiz Nazpəri Əmənova bu medalı gümüşlə əvəzlədi. Respublikada. Bu il 15 məzunumuz ali və orta ixtisas məktəblərinə daxil oldular. Son üç ildə iki məzunumuz Prezident yanında Dövlət İdarəçilik Akademiyasına qəbul olmuşdur. Deməli, zəhmətimizin bəhrəsi var. Özü də ürəkaçan, fərəhləndirici və qürurverici. Bundan böyük sevinci varmı, müəllimin?!

Gərgin əmək sərf etdiyiniz yolun sonunda nə var,- deyə soruşuram. Ən böyük arzum doktorluq dissertasiyasını işləyib hazırlamaq, professor elmi adına nail olmaqdır. Yüksək tribunalardan ana dilimizin incəliklərini auditoriya dinləyicilərinə çatdırmaqdır,-deyir. Bir də deyir ki, atamın əldə edə bilmədiklərinə mən həyatda nail oldum. Onun zəhmətinin hədərə getmediyini sübuta yetirdim.

Məktəb, ailə, bir də elmi işlə məşğul olmaq üçün vaxtını səmərəli bölməyə çalışır. Öyrənmək heç vaxt gec deyil,-qeyd edir. Bildirir ki, bu gün orta məktəbdə dərs deyən hər bir müəllim tədris etdiyi fənni təkcə bir bölmə ilə öyrədə bilməz. Yəni, öyrətdiyi elmi universal dərəcədə bilməlidir. Şagird ali təhsil müəssisəsinə hərtərəfli informasiya ilə daxil olur, sonra orada bu biliyi mükəmməlləşdirir və daha dərindən öyrənir.

Araşdırdığınız atalar sözü və məsəllərdən həyatda hansını daha çox işlədirsiniz sualım onu düşündürdü. "Divani lügət-it-türk" əsərində bu gün də Azərbaycan dilində işlənən atalar sözündən bir neçəsini qeyd etdi: "Aya əl uzatmazlar" (gözlə görünənə əl uzatmazlar), "Dillə düyünlənən dişlə açılmaz", "Kişi sözü bir olar, yəhər bağı üç"... Kiçik yaşlı övladlarına da belə məsəllər söyləməklə onların həyatda düzgün qərarlaşmasına kömək etdiyini də vurğulayır.

Beynəlxalq müəllim Günü ərəfəsində müsahibimi oxucularımız adından təbrik edirəm. Könüllərdəki yeriniz peşəniz qədər ucalığa qovuşsun. Zəhmətinizin həmişə bar-bəhərini görüb sevinəsiniz. Elmi axtarışlarınız dilimizə, ədəbiyyatımıza böyük töhfələr bəxş etsin.

LEYLA.

Rayonda "Sülh aylığı" mövzusunda keçirilən silsilə tədbirlər

Ənənəvi olaraq hər il respublikamızda "Beynəlxalq Sülh Günü" ərəfəsində - 21 avqust-21 sentyabr tarixlərində "Sülh aylığı"elan edilir və bu məqsədlə bir çox kütləvi maarifləndirmə tədbirləri keçirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının (MFP-nin) 4.10-cu bəndində də əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi nəzərdə tutulmuş və ötən dövr ərzində bu istiqamətdə aidiyyati qurumlar tərəfindən bir sıra zəruri tədbirlər təşkil edilmişdir.

"Sülh aylığı" çərçivəsində rayonun idarə, müəssisə və təşkilatlarında dəyirmi masalar, diskussiyalar və sərgilər təşkil edilmişdir.

Heydər Əliyev Mərkəzində "Ulu Öndər Heydər Əliyev ölkəmizdə sülh və əmin-amanlığın yaradılmasının banisidir" mövzusunda geniş tədbir, rayon Qeydiyyat şöbəsində "Hüquqların müdafiəsi, inkişaf, tərəqqi yalnız sülh və əmin-amanlıq şəraitində mümkündür" mövzusunda yeni ailə quranlarla ailə münasibətlərinin tənzimlənməsi ilə bağlı maarifləndirici söhbətlər aparılmış, rayon Dövlət Rəsm Qalereyasında "Dünyada sülh uşaqların gözü ilə" rəsm müsabiqəsi, "Murad" Əlillər Cəmiyyətində "Mənim hüquqlarım məni qoruyur" rəsm və toxuma işlərinin, Mərkəzləşdirilmiş Kitabxana Sistemində isə "Sülh və inkişaf" başlığı altında kitab sərgiləri, Uşaq İncəsənət məktəbində "Azərbaycan bəstəkarlarının yaradıcılığında sülh mövzusu"nda, Peşə Liseyində "Sülh Azərbaycanda dövlət siyasətinin tərkib hissəsidir" mövzusunda, Gənclər və İdman İdarəsinin və Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Mərkəzi Kitabxanada "İnsan hüquqları, demokratiya və sülh" mövzusunda tədbirlər keçirilmiş, Birləşmiş Uşaq Xəstəxanasının Poliklinika şöbəsinin sahə həkim və tibb bacıları aylıq çərçivəsində "Hər bir uşağın qayğısına qalaq" başlığı altında tibbi xidmət təşkil etmiş, Hacı Tağı məscidində "Dindarlar sülh carçısı kimi" mövzusunda maarifləndirici söhbətlər aparılmışdır.

Sevinc SƏMƏDOVA,
RİH Aparatının Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu.

"Radikal dini qüvvələr çirkin məqsədlərinə çata bilməyəcəklər"

Bu fikirlər Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Din və Demokratiya Mərkəzi" İctimai Birliyi tərəfindən "Dini radikalizmə qarşı mübarizənin təşkili üzrə maarifçilik işləri" layihəsi çərçivəsində mərkəzi kitabxanada keçirilən tədbirdə səslənmişdir.

Tədbirdə təhsil, mədəniyyət işçiləri, QHT, rayon ictimaiyyətinin nümayəndələri, gənclər iştirak etmişlər.

Tədbirdə ictimai birliyin sədri Vasif Sadıxlı Salyan, Neftçala, Yardımlı rayonlarında həyata keçirilməsi nəzərdə tutulan layihənin məqsəd və məramı barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, əsas məqsəd bölgələrdə fundamentalist riski olduqda bu riskin aradan qaldırılması istiqamətində maarifləndirici işlərin aparılmasıdır. İştirakçılara aydın olsun deyə qeyd edib ki, fundamentalistlər onlar kimi düşünməyənləri, qəbul etməyən, dini siyasiləşdirən qüvvələrdir. Natiq həmvətənlərimizi fundamentalistlərin təsiri altına düşmək təhlükəsindən qorumaq üçün hər bir Azərbaycan vətəndaşının bu məsuliyyətli işə öz töhfəsini verməli, azərbaycançılıq ideologiyası ətrafında sıx birləşməli olduğunu vurğulamışdır.

Çıxış edənlər rayon ziyalılar birliyinin sədri Allahverdi Piriyev, Azərbaycan Yazıçılar Birliyi Muğan bölməsinin sədri Nəbi İbrahimov, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Salyan rayon Komitəsinin sədri Hüseyn Ağayev, rayon gənclər və idman idarəsi rəisinin müavini Aqşin Qasımov, şair-jurnalist Əzizağa Məmmədli bildirmişlər ki, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişindən indiki dövrə qədər böyük işlər görülmüşdür. Başqa dinlərə sitayiş edən millətlərin nümayəndələri üçün normal şərait yaradılmış, Azərbaycanda yaşayan xristianlar üçün kilsələr, yəhudilər üçün sinaqoqlar inşa edilmişdir. Əsrlər boyu Azərbaycandakı tolerant, multikultural mühit, bütün sahələrdə əldə olunan uğurlar ölkəmizi gözügötürməyən bəzi qüvvələri ciddi şəkildə narahat etməkdədir.

Tədbirdə yekdil fikir ondan ibarət olmuşdur ki, radikal dini qüvvələr bilməlidirlər ki, Azərbaycana qarşı onların hazırladıqları məkrli planlar həyata keçməyəcək və ölkənin ictimai-siyasi sabitliyini heç bir qüvvə poza bilməyəcəkdir.

RİH başçısı aparatının məsul işçisi Aqşin Babayev tədbirdə iştirak və çıxış etmişdir.

Salyan şəhidlərinin xatirəsinə həsr edilmiş futbol üzrə rayon turniri

Salyan rayon Gənclər və İdman İdarəsi tərəfindən rayonun 20 Yanvar küçəsində yerləşən "Dəmiryolçu" stadionunda şəhidlərin xatirəsinə həsr edilmiş futbol üzrə rayon turniri keçirilmişdir. Öncə şəhidlərin əziz ruhu bir dəqiqəlik sükutla yad edildi.

Çıxış edən rayon Gənclər və İdman İdarəsinin rəisi Araz Hüseynov idmançıları salamlayaraq bildirdi ki, turnirin keçirilməsində əsas məqsəd Salyan şəhidlərinin əziz xatirəsini yad etmək, rayonda futbolun inkişafına nail olmaq və perspektivli idmançıları aşkar etməkdən ibarətdir. Şəhidlərimizin əziz xatirəsini daim uca tutmaq hər birimizin müqəddəs borcudur. Azərbaycanın bütövlüyü uğrunda, torpaqlarımızın qorunmasında canlarından keçmiş şəhidlərimizin ömür yolu hər birimiz üçün örnəkdir. Torpaqlarımızın qorunması, vətənimizin müdafiəsi uğrunda canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur.

Sonra "Lokomotiv" və "Dayıkənd" komandalarının oyunu ilə turnirə start verildi. Yarışların 2 qrup üzrə keçirildiyi turnirdə A qrupu üzrə "Noxudlu", "Lokomotiv", "Dayıkənd", "Sarvan" komandaları, B qrupu üzrə isə "Qardaşbəyli", "Seyidsadıqlı", "Xıdırlı", "Qızılağac" komandaları olmaqla 8 komanda mübarizə apardı. Turnirin qrup oyunlarına yekun vurulduqdan sonra A qrupu üzrə "Noxudlu" və "Sarvan" komandası, B qrupu üzrə "Xıdırlı" və "Qızılağac" komandası turnirin yarımfinalına çıxdı. Yarımfinal oyunlarında qalib gələn "Qızılağac" və "Xıdırlı" komandaları turnirin finalına yüksəldi. Final oyununda "Xıdırlı" komandası "Qızılağac" komandası üzərində 4: 0 hesablı qələbə qazanaraq I yeri qazandı. Turnirin ən yaxşı oyunçusu Şamxal Məlikov, ən yaxşı müdafiəçisi Məhəmməd Əliyev, ən yaxşı yarımmüdafiəçisi isə Sadəddin Əhmədov seçildi.

Qalib komandalar və fərqlənmiş iştirakçılar Salyan rayon Gənclər və İdman İdarəsinin diplom, medal, kubok və hədiyyələri ilə təltif edildilər.

18 sentyabr Azərbaycanın Milli Musiqisi Günüdür

Milli musiqimizin təəssübünü çəkək

Sözləri Əhməd Cavada, musiqisi dahi Azərbaycan bəstəkarı, görkəmli ədib, publisist və ictimai xadim Üzeyir bəy Hacıbəyliyə məxsus olan müstəqil Azərbaycan Respublikasının Dövlət Himni dünyanın bütün ölkələrində qürurla səslənir və hər birimizin ürəyini iftixar hissi ilə doldurur, qəlbimizi riqqətə gətirir.

1885-ci il sentyabrın 18-də dünyaya gələn Üzeyir bəy Hacıbəylinin anadan olduğu gün hər il Azərbaycanda Milli Musiqi Günü kimi yüksək səviyyədə, böyük təntənə ilə qeyd olunur. Professional Azərbaycan musiqisinin, bəstəkarlıq məktəbinin və milli musiqi nəzəriyyəsinin banisi Ü.Hacıbəyli həm də Şərq aləmində ilk operanın müəllifidir. 1908-ci il yanvarın 12-də səhnəyə qoyulan "Leyli və Məcnun" operası iki dahi sənətkarın-Füzulinin və Üzeyir bəyin sənət möcüzəsi ilə milyonların qəlbini fəth etməkdədir. Onu da qeyd edək ki, bu tamaşanın bədii tərtibatını verən, həmyerlimiz, dahi mütəfəkkir, Türk dünyasının ictimai fikir tarixində müstəsna rol oynamış Əli bəy Hüseynzadə olmuşdur. Tamaşanı müşayiət edən orkestrin tərkibində məşhur tarzən Quban Pirimovla yanaşı, sənətkarlıq baxımından ondan heç də geri qalmayan Şirin Axundov (Salyanlı Şirin) də olmuşdur. Bu gün də populyarlığını qoruyub saxlayan "Koroğlu" operasının möhtəşəm melodiyaları qəhrəmanlıq himni kimi səslənməkdədir. Üzeyir bəyin operettaları, misilsiz romansları könülləri ovsunlayır, qəlbləri ehtizaza gətirir. Dahi Ü.Hacıbəylinin sənətdə açdığı yol ilə Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Soltan Hacıbəyov, həmyerlimiz Arif Məlikov və başqalarının yaradıcılığı keçir.

XII əsrdə Nizami Gəncəvi, XVI əsrdə Məhəmməd Füzuli, XIX əsrdə Mirzə Fətəli Axundov, XX əsrdə Hüseyn Cavid, Mirzə Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyli və digər qüdrətli sənətkarlarımız özlərinin ecazkar yaradıcılıqları ilə Azərbaycanın adını zirvələrə qaldırdılar. Azərbaycan xalqı öz folklorunu, milli musiqisini qoruyaraq bu günlərə gətirib çıxara bilmiş, dünya mədəniyyətinə nadir incilər bəxş etmişdir. Muğam sənəti də bu nümunələrdən biri və bəlkə də birincisidir. Muğam sənətinin daxilində həm musiqi, həm poeziya, həm ifaçılıq, həm də digər incə məqam və keyfiyyətlər mövcuddur. Azərbaycan tar və kamançası muğam ifaçılığının ayrılmaz tərkib hissələridir. Əsəd oğlu Mirzə Sadıq (Sadıqcan), Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Qurban Pirimov, Şirin Axundov, Bəhram Mansurov, Habil Əliyev və başqa sənətkarların yüksək səviyyəli müşayiət və solo ifaları xanəndəlik sənətinə güclü təkan vermiş, onu daha da inkişaf etdirmişdir. Azərbaycan xanəndəlik sənətində Xan Şuşinski, Seyid Şuşinski, Zülfü Adıgözəlov, Ağabala Abdullayev, həmyerlimiz Qulu Əsgərov, Yaqub Məmmədov, İslam Rzayev, Alim Qasımov kimi korifey sənətkarlarımız muğammıza yeni-yeni nəfəslər gətirmiş, təzə xallar əlavə etmiş, onu təravətləndirərək estetik cəhətdən daha zövqlü və gözəl etmişlər.

Dünyaya dəyərli mədəniyyət və incəsənət xadimləri bəxş edən doğma Salyanımız da Azərbaycan milli musiqisinin inkişafına özünün layiqli töhfələrini vermişdir. İnanırıq ki, gələcəkdə də dünya şöhrətli Arif Məlikovun, dünya vokal sənətinin görkəmli nümayəndələri Fidan və Xuraman Qasımova bacılarının, məşhur tarzən Salyanlı Şirinin, Azərbaycan opera sənətinin görkəmli nümayəndəsi Qulu Əsgərovun, xalq artisti Bilal Əliyevin, 18 adda musiqi alətində məharətlə ifa edən "Mahirlər" ailə ansamblının rəhbəri, Respublikanın Əməkdar artisti Həsənağa Sadıqovun, görkəmli qarmonçalan Aslan İlyasovun, Xalq artisti , tarzən Mircavad Cəfərovun yolu uğurla davam etdiriləcək, xalqımızın bədii-estetik zövqünün formalaşmasına, mənəvi cəhətdən zənginləşməsinə xidmət göstərəcək tanınmış sənətkarlar yetişəcəkdir.

Əzizağa MƏMMƏDLİ.

İdman ustasının xatirəsinə güləş turniri

Güləş üzrə idman ustası, daşqaldırma üzrə SSRi idman ustası Yaşar Cavadovun xatirəsinə Salyanda güləş turniri keçirilib. Yeniyetmə və azyaşlıların güclərini sınadığı V respublika açıq güləş turnirinə el pəhləvanlarının nümunəvi çıxışlarının nümayişindən sonra start verilib. Yarışa 22 rayondan gələn güləşçilərlə yanaşı, qonşu İran, Rusiya və Gürcüstan idmançıları da qatılıb. Gənclər İdman Nazirliyi və Güləş Federasiyasının dəstəyi ilə 3 gün davam edən turnirdə Azərbaycan I, İran II, Gürcüstan III yerləri bölüşmüş, rayonlar arasında salyanlı güləşçilər 5 medal qazanmışlar. Qaliblər fəxri fərman və qiymətli hədiyyələrlə təltif olunmuşlar.

Qeyd edək ki, 1957-ci ldə Salyanın Şorsulu kəndində anadan olan el pəhləvanı Yaşar Cavadov sərbəst güləş üzrə Azərbaycan çempionatlarının qalibi olub. Azərbaycan Milli İdman Oyunları üzrə IV respublika spartakiadasının, həmçinin daşqaldırma turnirlərində birinci pilləyə ucalıb. O, 36 il əvvəl "Hünər" sirk estrada kollektivini yaratmaqla da yaddaşlarda qalıb.

"Qələbə" qəzetinə 2018-ci ilin IV rübü üçün abunə kampaniyası davam edir

Hörmətli oxucular!

Salyan Rayon İcra Hakimiyyəti və redaksiya kollektivinin təsisçiliyi ilə nəşr olunan "Qələbə" qəzetinə 2018-ci ilin IV rübü üçün abunə yazılışı davam edir. İlboyu dövlət bayramları, əlamətdar günlər, həmçinin rayonun ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında baş verən yeniliklər barədə müxtəlif janrlı yazılarla yaxından tanış olmaq istəyirsinizsə, abunə yazılışında iştirak etməyi unutmayın.

Qəzetin 3 aylıq abunə qiyməti 10 manatdır

Qəzetimizə abunə pulu hesaba köçürməklə və ya redaksiyada nağd ödəməklə mümkündür.

Əlaqə telefonları: (021) 255-23-68; 255-29-26.

"Qələbə" qəzetinin vaxtında çatdırılması ilə bağlı hər hansı problemlə qarşılaşarkən Salyan poçtamtına: 255-07-15 nömrəli telefonla müraciət etməyiniz xahiş olunur.

ETİBARSIZDIR

Salyan rayon Aqrar İslahat Komissiyasının 30 iyul 1998-ci il tarixli 09 saylı qərarı ilə Arbatan kənd sakini Məmmədova Svetlana Xanbala qızının adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-249, kod-80903018) itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 18 fevral 2000-ci il tarixli 02 saylı qərarı ilə Ərəbqardaşbəyli kənd sakini Zayıdov Ağabala Xanoğlan oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-0144, kod-80908058) itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 30 noyabr 2001-ci il tarixli 12 saylı qərarı ilə Qarabağlı kənd sakini Kərimov Rəcəb Nəcəf oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-713, kod-80906018) itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 30 noyabr 2001-ci il tarixli 12 saylı qərarı ilə Qarabağlı kənd sakini Kərimov Nəcəf Məmmədhəsən oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-710, kod-80906018) itdiyi üçün etibarsız sayılır.

ƏMDK yanında DƏDRX 13 saylı Əİ-nin 28 ha torpaq sahəsi üçün Salyan bələdiyyəsinə verilən 27 yanvar 2015-ci il tarixli seriya: RX № 0551530 saylı Şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 27 noyabr 1996-cı il tarixli 11 saylı qərarı ilə Qızılağac kənd sakini mərhumə Mirzəyeva Nəcibə Nəhmət qızının adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-237, kod-80907018) itdiyi üçün etibarsız sayılır.

Salyan rayon Aqrar İslahat Komissiyasının 26 iyun 1998-ci il tarixli 08 saylı qərarı ilə Sarvan kənd sakini İbişov İxtiyar Əliyar oğlunun adına verilmiş Torpağa Mülkiyyət Hüququna dair Dövlət Aktı (JN-291, kod-80910018) itdiyi üçün etibarsız sayılır.

Baş redaktor: R.S.Məlikov

Müəlliflə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Faktlara görə müəlliflər cavabdehdir.

Telefonlarımız: (021)255-23-68, 255-29-26
E.mail:qelebesalyan@gmail.com
Ünvanımız: AZ 5200
Salyan, Heydər Əliyev prospekti 92

Qeydiyyat N478.
Tiraj: 830 Sifariş: 25-26
Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və fiziki şəxs Zeynalov Bayram Nəzər oğluna məxsus "BZ" mətbəəsində çap edilmişdir

Kapital Bankın Salyan filialında hesab №AZ17AİİB33070019444300222143 VÖEN:7000080071

Məsul növbətçi: Ə.B.Məmmədli